AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

22 MAY 2024-cü il ÇƏRŞƏNBƏ № 106 (7864) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*




***Vətən müharibəsində Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi, regionu separatizmdən təmizlədi, terrorçuları layiqincə cəzalandırdı. Beləliklə, dövlətimiz tərəfindən keyfiyyətcə müasir mərhələnin, yeni reallıqlar kontekstində sürətli inkişaf və quruculuq dövrünün təməli atıldı. Prezident İlham Əliyevin uzaqgörən siyasəti qələbəmizi şərtləndirməklə bərabər, postkonflikt dövründə zəruri hədəfləri yerinə yetirə bilməsi üçün dövlətimizin iqtisadi qüdrətini də artırdı.***

Hazırda bütün dünyanın gözü qarşısında Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda ildırımsürətli bərpa-quruculuq işlərini həyata keçirir. Azərbaycan ordusunun döyüş meydanındakı şanlı qələbəsinin də, regionumuzdakı yeni reallıqların da müəllifi liderlik keyfiyyətləri, müzəffər sərkərdəliyi, diplomatik məharəti, dəqiq hesablanmış strateji və taktiki qərarları ilə seçilən Ali Baş Komandan İlham Əliyevdir. Azərbaycan Prezidenti yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində mühüm tarixi və siyasi məqamları diqqətə çatdırmaqla yanaşı, yeni şəraitdə həm regional, həm də beynəlxalq təhlükəsizlik və əməkdaşlıqla əlaqədar Azərbaycanın mövqeyini aydın ifadə edib. Prezident işğaldan azad edilən ərazilərdəki quruculuq işləri, burada tam yeni infrastrukturun yaradılması, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı məsələlərindən danışıb. Hədəf 140 min keçmiş köçkünü öz dədə-baba torpaqlarına qaytarmaqdır. Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin yaşayış məntəqələrinə keçmiş məcburi köçkünlər qayıdacaq.

Azərbaycan Prezidenti İlham Əliyev Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışında iştirak edib. Yeni yollar çəkilir, ərazilərin fasiləsiz elektrik enerjisi ilə təminatı həyata keçirilir, yaşayış binalarının təməlləri qoyulur. Böyük Qayıdışın təmin edilməsi üçün ərazilərin minalardan təmizlənməsi ilə paralel, ilkin mərhələdə baza və sosial infrastrukturun qurulması prioritet məsələdir və bu istiqamətdə işlər sürətlə davam edir. Quruculuq çərçivəsində Tərtər rayonunun Suqovuşan qəsəbə tam orta məktəbində bərpa işləri yekunlaşıb, Talış kənd tam orta məktəbi və uşaq bağçası isə artıq istifadəyə verilib. Ağdam və Füzuli şəhərlərində isə uşaq bağçaları üzrə layihələndirmə işləri aparılır. Prezident İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura səfər etməsi, bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətini də yüksəldir. Uğurlu nəticələr cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticələridir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirdiyi kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir. Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini sürətləndirir. Bütün bunlar bir daha onu göstərir ki, dövlətimiz güclüdür və siyasi iradənin gücü bütün çətinliklərin öhdəsindən gəlməyə imkan verir.

**(davamı 3-cü səhifədə)**

# Qarabağ və Şərqi Zəngəzurda tarix yazan iqtisadi güc







(əvvəli 1-ci səhifədə)

"Azərbaycan dövləti güclü dövlətdir, öz gücünə, öz imkanlarına arxalanan dövlətdir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimindəki çıxışında söyləyib: "Biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur. Həm yaşayış evləri, infrastruktur layihələri, suvarma layihələri, dəmir yolları, tunellər, hava limanları - cəmi üç il ərzində görülmüş işlər dövlətimizin gücünü, hökumətimizin və dövlətimizin iradəsini göstərir. Dediyim bu layihələrin hamısı icra ediləcək".

İrimiqyaslı layihələr sırasında beynəlxalq hava limanları, "yaşıl enerji" zonasının yaradılması məqsədilə pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilməsi, ərazilərdə aparılan abadlıq-quruculuq işləri Böyük Qayıdışın təntənəsidir. Suqovuşanda yol infrastrukturu ilə yanaşı, abadlıq-quruculuq işləri də davam etdirilir. Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə aparılır. Dövlət başçısı tərəfindən irəli sürülən "Yaşıl Enerji Zonası"nın yaradılmasına dair strateji baxış və 2030-cu ilə qədər ölkəmizin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetdən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi təsbit edilməsi, həmçinin Azərbaycan Prezidentinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hidroenerji potensialının yenidən tədqiqi barədə "AzərEnerji" ASC-yə verdiyi tapşırığın icrası məqsədilə işğal dövründə dağıdılmış su elektrik stansiyalarından əlavə, ekoloji normalar daxilində yenilərinin tikintisi barədə hesabat hazırlanaraq təqdim edilib. Hesabata əsasən bölgədə ümumi gücü 467 MVt olan 72 kiçik su elektrik stansiyası olacaq.

Böyük Qayıdış çərçivəsində Kəlbəcərin "İstisu" sanatoriyasının tikintisinə başlanılıb, Zəngilan rayonu ərazisində isə "Azərişıq" ASC tərəfindən genişmiqyaslı işlər görülür. Kəlbəcərin gözəl təbiəti, əlverişli relyefi, zəngin mineral suları dövlət iqtisadiyyatı və turizm sahəsinin inkişafı üçün böyük əhəmiyyət daşıyır. Yuxarı İstisu, Aşağı İstisu kimi çox böyük müalicəvi təsirə malik mineral su yataqları da var. Bundan əlavə, Kəlbəcərdə dağ memarlıq üslubunun yeni məzmunda inkişafı diqqətdə saxlanılacaq.



Dövlət Proqramının Tədbirlər Planında avtomobil və dəmir yollarının, yeni hava limanlarının tikintisi kimi strateji layihələr yer alıb. Bunlardan artıq bir neçəsi - "Zəfər yolu", Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolu, Füzuli-Hadrut avtomobil yolu, Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının tikintisi uğurla icra olunub. Laçın Beynəlxalq Hava Limanının tikintisi davam etdirilir. Müharibədən sonrakı dövrdə qısa zaman ərzində ölkəmizin imkanları hesabına, dost ölkələrin nüfuzlu şirkətlərini cəlb etməklə beynəlxalq hava limanları tikilib istifadəyə verilib. İşğaldan azad olunmuş əraziləri bir-birinə bağlayan müasir yol-nəqliyyat infrastrukturunun yaradılması, Azərbaycanın əsas hissəsini Naxçıvan və daha sonra qardaş Türkiyə ilə bağlayacaq Zəngəzur dəhlizinin əsasının qoyulması və son nəticədə bölgənin beynəlxalq logistika mərkəzinə çevrilməsi potensialının yaradılması, habelə enerji təminatı məsələlərinin həll edilməsi, ən qabaqcıl texnologiyalar əsasında yaşayış məskənlərinin və istehsal obyektlərinin yaradılması istiqamətində görülən işlər Prezident İlham Əliyevin formalaşdırdığı yeni reallığın konturlarını aydın göstərir.

**Mustafa KAMAL,**
**"Respublika".**